BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 05 (05) MART (MART) 2006

# AZƏRBAYCANDA XIII-XV ƏSRLƏRDƏ TƏTBİQ EDİLƏN İSLAM HÜQUQUNDA MÜHARİBƏLƏR ZAMANI İNSAN HÜQUQLARININ QORUNMASI MƏSƏLƏLƏRİ

*Samir Hüseyn oğlu Məmmədov*[1]

**SUMMARY**

**The issues of protection of human rights during wars in Islamic law applied in Azerbaycan in XIII-XV centuries.**

**In the Islamic right gives the large value to protection both ensuring of the various rights and individual liberties and the basis of ensuring them is Koran and «sunna», in which is advanced Islamic rule about of the man as most best essence created by Allah on ground, in this connection his rights and freedom should be inviolable, that is why are protected by the law. Therefore to begin war without need, and thus, without need to spill human blood was considered as a grave sin and categorically was provided against.**

Islamic right did not suppose application of torture, assault and ordeals and during wage of wars too.

**The norms of Islamic right laid under obligation to concern with owing respect to the representatives «ahl al Kitab» - (to the Christians, Jews) and pagans and to build relation with them on the basis of goodwill and philanthropy, including at wage wars period, and it was a duty everyone Muslims. The analysis of medieval sources shows, that according to the specified rules of law, the relation to «zimmies» on all Islamic East was as a whole benevolent both their right and freedom were protected and were provided practically by the all Muslims states, including Azerbaijan.**

**One of major institutes in the Islamic right is the military-legal institution «aman», used in waging wars is, that surrendered**

[1] AMEA Fəlsəfə və siyasi-hüquqi tədqiqatlar institutunun dissertantı.

**warrior have the particular right consisting in safety him and his family as the warranties of life, health and freedom, inviolability of their asset, in grant of legal status not attracting captivity, slavery both infringement of the rights and freedom of the person is given to the person, and also his native and close, and if the person was captured, was subject to immediate release from a captivity. «Aman» in XIII-XV centuries was widely applied in all East, including in Azerbaijan during war, and till now has not lost the urgency and all legal capabilities, in it pledged. Taking into account, that the international armed conflicts especially in Near East till now do not calm down, where are living the plenty of Muslims, the application of this military-legal institution in aggregate of other measures directed on settlement of the conflicts, ensuring of the rights, freedom and lawful interests both Muslims, and no Muslims is quite possible. Actuation "aman" in area of international law would create the additional effective gear of settlement the international conflicts.**

İslam dinində əsas müddəalardan biri də odur ki, insan Allah tərəfindən yaradılmış ən böyük varlıq olduğuna görə, onun hüquq və azadlıqları toxunulmaz olmasıdır. İnsan hüquqlarının, o cümlədən müharibələr zamanı təmin edilməsi və qorunmasının hüquqi əsasları Quran və sünnədə təsbit edilmişdir.

Hz.Peyğəmbərin və məkkəlilərin Mədinə şəhərinə mühacirət etdikdən sonra, 624-cü ildə «Mədinənin Konstitusiyası» adlanan mühüm əhəmiyyət kəsb edən hüquqi sənəd qəbul edilmişdir. Məlumdur ki, dövlətin ictimai və inzibati quruluşunu hakimiyyət orqanlarının yaradılma prinsiplərini, vətəndaşlarının əsas hüquq və vəzifələrini ümumi şəkildə müəyyən edən əsas qanun konstitusiya adlanır. Göstərilən sənəd bu tələblərə cavab verdiyinə görə, elmi ədəbiyyatda konstitusiya adlandırıldı[2]. Təxminən 50 maddədən ibarət olan bu sənəd insan hüquq və azadlıqlarının təminini özündə əks etdirmişdir[3]. Nəcran xristianları ilə bağlanan sülh müqaviləsində onların hüquq və azadlıqları eyni qayda ilə əks edilməklə, Hz.Peyğəmbər bunların

[2] Hayreddin Karaman. Anahatlarıyla İslam hukuku. Giriş və amme hukuku., cilt 1, İstanbul: Ensar neşriyat TİS. A.Ş., Süleymaniye, 1979, s.167; Словарь иностранных слов. М.: Русский язык, 1987, с. 247

[3] Hayreddin Karaman. Yenə orada.

müddətsiz qorunmasını tələb etmişdi.[4] İnsanların təbii və ayrılmaz hüquqları ilə yanaşı digər hüquqları, o cümlədən qanun və məhkəmə qarşısında bərabərlik, şəxsi toxunulmazlıq, imkan bərabərliyi, şəxsi azadlıq, dini etiqad, inanc və ibadət azadlığı, iş azadlığı, mülk əldə etmə azadlığı, ictimai yardımdan istifadə etmə haqqı və bir çox başqa haqlar islam hüququnda elə islamın ilk çağlarından elan edilmişdir[5].

İslam hüququnun müxtəlif hərbi-hüquqi normalarının təhlilindən göründüyü kimi, müharibə aparılan zaman qanun çərçivəsində hərəkət edilməsi, qanuni həddi aşmaması tələbi kəskin şəkildə əks edilmişdir. Bu müddəalar ümumiyyətlə müharibə faktından yaranan hüquqi məsələləri islam normalarına uyğun həll edilməsinin təməlini qoyurdu. Zərurət olmadan adam öldürmə, dağıtma, məhv etmə və s. bu kimi hərəkətlərə yol verilmirdi. İlk növbədə adam öldürmə qadağası mühüm əhəmiyyət kəsb edir, çünki islamda əsas müddəalardan biri adam öldürmənin qadağası və insanın təqsirsizliyidir[6] 5/32. İslam hüquqçularının göstərdikləri kimi, ümumiyyətlə insan qanının axıdılması yasaqlanmışdır[7]. Hüquqi əsaslar olmadığı halda, müharibə başlamaq, insan öldürmək, qan tökmək qanunla qəti qadağan edilmiş və müvafiq olaraq cəzalandırılırdı. Müharibə zamanı, şəxsən döyüşlərdə iştirak etməyən və döyüşçü olmayan müxtəlif mülki şəxslər, qadınlar, uşaqlar, kəndlilər, əlillər, yaşlılar, xəstələr və din adamları heç bir halda öldürülməməli, onlara xəsarət də yetirilməməli idi. Bu qrupa hənəfilərə görə, ağır, o cümlədən iflic olan xəstələr, fiziki və ruhi cəhətdən əlillər, kəmağıllılar, zahidlər və çox sərxoş olanlar aid edilmişdir. Burada fiziki əlillər qrupuna sağ qolu kəsilən və xaçvari olaraq bir qolu və bir ayağı kəsilmişlər də nəzərdə tutulur. Eyni zamanda belə kateqoriyalı şəxslərdən kimsə müsəlman ordusuna qarşı hər hansı bir formada vuruşursa, sünnü

---

[4] Hayreddin Karaman. İslam hukuk tarihi. İstanbul: Kadıköy, 1976, s.99-100; Панова В.Ф., Вахтин Ю.Б. Жизнь Мухаммеда. М.: Изд-во полит. лит-ры., 1990, с. 308-309

[5] Hakkı Aydın. İslam ve modern hukukta işkence. Ankara. İstanbul: Cağaloğlu.1995, s.31-43.

[6] Qurani-Kərim. Tərcüməsi: Z.Bünyadovun və V.Məmmədəliyevindir., Ön söz V.Məmmədəliyevindir. Bakı: Azərnəşr, 1991, s. 93; Öztürk Yaşar Nuri. Kurandakı İslam., İstanbul.: Yeni Boyut, 2000, s. 676

[7] Ahmet Yaman. İslam devletler hukukunda savaş. İstanbul., 1998, s.73-74

məzhəblərinin ümumi fikrinə əsasən, o, təqib və öldürülə bilər[8]. Müharibə zamanı sərkərdələr mülki şəxslərə ziyan yetirməməyə çalışırdılar. Məhz bu səbəbdən dövrün bir çox salnaməçiləri müqavimət göstərmiş məntəqənin yaşından asılı olmayaraq bütün əhalisini monqol qoşunları tərəfindən qılıncdan keçirməsini vəhşilik nümunəsi kimi qiymətləndirirdi.

634-cü ildə Əbu Bəkr müsəlman qoşununu yürüşə yola salaraq, sərkərdəyə aşağıdakı göstərişləri vermişdir: «Düşmənlə qarşılaşdığın zaman Allah sənə qələbə verərsə, acığa düşüb, düşmənlərin bədənlərini eybəcər hala salma, namərdlik etmə və qorxma. Uşağı, qocanı, qadını öldürmə. Palma ağaclarını yandırmayın, onun qabığını soymayın, meyvə ağaclarını vurmayın və heyvanı lazım olandan artıq kəsməyin. Təkiyədə olan insanları görüb, onlardan «Biz özümüzü Allaha həsr etmişik» sözləri eşidərkən onlarla işiniz olmasın…»[9]. Azərbaycan dövlətlərinin sərkərdələri əksər hallarda mülki əhaliyə ziyan vurulmamasına çalışır, bununla bağlı xüsusi fərmanlar da verirdilər. Belə ki, Cahanşah Qaraqoyunlu Herat ərazisində gedən döyüşlər zamanı yerli əhali və onun əmlakına ziyan vurulmasına ciddi qadağa qoymuşdur. Təsadüfən əkin sahəsinə girən mal-qara müsadirə olunmaqla, onların sahibləri cəzalandırılmışdır[10].

Quranda qanunla nəzərdə tutulmuş həddlərin aşmaması, müharibəyə aid olmayan şəxslərlə yaxşı və ədalətlə davranma tələbi bir sıra ayələrdə buyrulmuşdur: «Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlara ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!», «Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər…»[11] 60/8-9.

Qadınların hüquqları qanunla qorunurdu. Hz.Peyğəmbər buyurmuşdu ki: «Qadın haqlarının qorunmasında Allahdan qorxun. Onları Allahın əmanəti olaraq aldınız. Allahın qanunu əsasında onlarla ər-arvad oldunuz və doğru yoldan dönməyib azmamanız üçün sizə Allahın Kitabı göndərildi» və

---

[8] Ahmet Yaman. İslam devletler hukukunda savaş, s.71-72

[9] Большаков О.Г. История халифата, в 3-х томах. Том II, М.: Восточная литература, 2000, с.18

[10] Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, göstəricilər və şərhlərin müəllifi R.Şükürovadır. Bakı: Elm, 1998, s.188

[11] Qurani-Kərim, s. 568

bir sıra başqa hədislərdə əks edilmiş normalar qadına qarşı olan münasibətin hüquqi əsasını təşkil edirdi[12]. Əsir düşən düşmən qadınlarının zorlanması, onlara hər hansı bir formada təcavüz edilməsi cəza ilə nəticələnirdi[13].

Mülki əhalini - qadın və uşaqları, həmçinin əsir düşmüş şəxsləri, o cümlədən hərbi əsirləri qalxan kimi istifadə edilməsi islam hüququnda qətiyyətlə qadağan edilmişdir. Məhz bu səbəbdən monqollar tərəfindən tətbiq edilən bu kimi hərəkətlər müasirlər tərəfindən böyük qəzəb və hiddətlə qarşılanırdı[14]. Göstərilən müddəa müasir qanunvericilikdə də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikasının cinayət məcəlləsinin (AR CM) 115.2-ci maddəsinə əsasən əsirləri, beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxsləri öz qoşunlarını və ya obyektləri hərbi əməliyyatlardan qorumaq məqsədilə onlardan sipər kimi istifadə etmə, yaxud belə şəxsləri girov kimi saxlama cinayət hesab edilərək, ciddi cəzalandırılır[15]. Əgər düşmən mülki əhalini, o cümlədən qadın və uşaqları, həmçinin əsir düşmüş müsəlmanları qalxan kimi istifadə edirdisə və ya onları mancanik və s. başqa atıcı mexanizm vasitəsi ilə mərmilənəsi mühüm yerlərdə yerləşdirirdisə, islam hüquqçularının bu məsələ ilə əlaqədar fikrincə, imkan daxilində atəş açılmamalı, əgər döyüş şəraiti ilə əlaqədar bu mümkün deyildirsə, döyüş mümkün qədər dar çərçivədə aparılmalı idi[16]. Düşmənin girov saxlanılan şəxslərini öldürmək qeyri-qanunidir. Hətta düşmən müsəlman girovlarını öldürsə də, qarşılıqlı olaraq girovların öldürülməsi qəti qadağan idi. Şihab əd-din Muhəmməd ən-Nəsəvi (XIII əsr) öz əsərində xarəzmşah Muhəmmədin anası Türkan Xatun haqqında xoş kəlmələr deyir, lakin 1220-ci ildə baş verən hadisəni təsvir edəndən sonra,

---

[12] Hayreddin Karaman. İslam hukuk tarihi. İstanbul: Kadıköy, 1976, s.99, 100

[13] Ahmet Yaman. Göstərilən əsər, s.146

[14] Армянские источники о монголах. Извлечения из рукописей XIII-XIV в.в. Пер. с древнеарм., предисл. и прим. А.Г.Галстяна. М.: Изд-во восточной литературы, 1962, 154 с. Гандзакеци Киракос. История Армении. Пер. с древнеарм., с предисл. и коммент. Л.Ханларяна. М. Наука, 1976, 357 с. Ибн ал-Асир Ал Камил фи-т тарих. Пер. П. К. Жузе. Материалы по истории Азербайджана. Б.: АзФАН, 1940, 183 с.

[15] Azərbaycan Respublikası Cinayət məcəlləsi. 1999-cu il 30 dekabr tarixli qanunla təsdiq edilmiş, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir. Bakı: Hüquq ədəbiyyatı, 2000, 350 s. s. 100

[16] Ahmet Yaman. Göstərilən əsər, s.140

onun bu qadına münasibəti tamamilə dəyişir. Belə ki, Türkan Xatun Xarəzm qalasında saxlanılan 22 nəfər müsəlman girovlarını (əvvəllər Xarəzmşahlara qarşı vuruşmuş və əsir götürülmüş əyanlar) edam etdirmişdir[17]. Bu misal hətta ən ağır anlarda belə girovların öldürülməsinin qadagan olunduğunu göstərir.

İnsan özünün Allah yolunda şəhid olunması üçün dua edib, bunu arzu edilməsinə icazə verilirdi, çünki bu yasaqlanmış ölüm arzusu deyildir. Hz.Peyğəmbərin müasiri Abdullah b.Cahşın dediyi kimi: «Allahım, məni müşriklərdən yaxşı kafir və çox təcrübəli bir adamla qarşılaşdır, onunla vuruşum, məni Sənin uğrunda öldürsün, soysun, sonra burnumu və qulaqlarımı kəssin və Sənə qovuşanda: «Ey Abdullah b. Cahş! Nəyin uğrunda kəsildin, biçildin?» sualına, mən də: «Sənin uğrunda ya Rəbb!» deyəydim»[18]. Hz.Peyğəmbər Uhud savaşında ağır yaralanan və yarası daha da ağırlaşdığı halda özünü intihar edən Kuzman adlı döyüşçü haqqında: «O cəhənnəmliklərdəndir» buyurulması özünə hətta ağır vəziyyətdə, əzabına son qoyulması məqsədilə də qəsd edilməsi yasaqlandırıldığını və bu kimi hərəkətlərin haram hesab olduğunu göstərir[19]. Burada evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və onun həyatının davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması da haram hesab edilməsi barədə fikir söyləmək olar[20].

Sülh və müharibə zamanı başqa dinlərin nümayəndələri ilə hörmətlə davranması, onlarla münasibəti mehribançılıq və xeyirxahlıq əsasında qurulması vacib hesab edilirdi. Kitab əhlinə olan sülhpərvər münasibəti özünü aşağıdakı ayədə tapmışdı: «Kitab əhlinin zülm edənləri istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! Və belə deyin: «Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız ona itaət edirik!»[21] 29/46. Bu mövqe bir çox başqa hədislərdən də görünür və bunların ümumi tezisini Hz.Peyğəm-

[17] Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны. Баку: Элм, 1973, с.83
[18] İbn Kayyim el-Cevziyye. Rahmet Peyqamberi «Zadu`l-Mead», Cilt: 3, İstanbul, 1989, s. 255
[19] Yenə orada, s. 255-256
[20] Azərbaycan Respublikası Cinayət məcəlləsi, s.118
[21] Qurani-Kərim, s. 393

bərin sözləri ilə ifadə etmək olar: «Kim zimmini incidirsə, məni incitmiş olur»[22]. Mənbələrdə müsəlman Şərqində orta əsrlərdə Kitab əhli olan qeyri-müsəlmanlarla böyük hörmətlə yanaşması göstərilir. Hətta müsəlman ölkələrində çoxlu sayda xristianlı məmur olduğuna görə, bəzən müsəlmanlar öz ölkələrində faktiki xristianlara tabe olmuşlar. Hətta IX əsrdə Ərəb Xilafətində xristianlar iki dəfə hərbi nazir vəzifəsinə təyin edilmişdilər.[23] Azərbaycanda göstərilən dövrdə yəhudi və xristianların hüquqları necə qorunub təmin olunmasını aşağıdakı misaldan görmək olar. 1487/88-ci ildə Ərdəbil şeyxi Heydər Ağqoyunlu hökmdarı sultan Yaqubdan çərkəzlərə qarşı cihad edilməsinə icazə almış, bunu bir bəhanə kimi istifadə edərək, Bərdə vilayətində yaşayan və hökmdara müvafiq müqavilə əsasında cizyə və uşr (vergi növü) verən zimmiləri talan etmişdir. İslam hüquq normalarına əsasən bu və digər cinayətlərinə görə, o, ittiham olunmuş, ona qarşı cihad başlanmış və o, cəzalandırılmışdır[24]. Lakin zimmilərin ehtiyac yaranan zamanlarda İslam yurdundan çıxarılıb sürgün edilməsinə icazə verilə bilərdi[25].

Müharibə zamanı insanların dini hüquqlarının da qorunması zərurəti hüquq norması kimi hədislərdə göstərilmişdir. Belə ki, Hz.Peyğəmbər Heybəri fəth etdikdən sonra ələ keçən bütün Tövrat nüsxələrini yəhudilərə qaytarılmasını əmr etmişdi[26]. Amma islam dininə qarşı çıxış edən və üsyan ocaqları və günah mərkəzləri olan müşriklərin türbələri və bütlər olan yerlərin dağıdılması, burada aşkar edilmiş malların cihada və müsəlmanların ehtiyacına sərf edilməsi qanuni hesab edilirdi. Döyüş zamanı qarşı tərəfdə düşmən arasında olan qeyri-müsəlman qohum-əqrəbanın öldürülməsi bəzi hüquqçular tərəfindən qanuni hesab edilsə də, Hz.Peyğəmbərdən öz qohumlarını öldürmək üçün izn istəmiş bəzi müsəlmanlara belə icazə verilməmişdir[27].

---

[22] Хунджи Фазлуллах ибн Рузбихан. Тарих-и Алам-Ара-йи Амини., Пер. с перс. на англ., введ., предисл., коммент. В.Ф. Минорского, пер. с англ. на русский Т.А. Минорской. Вступит. статья З.М. Буниятова, О.А.Эфендиева, Баку: Элм, 1987, с.86.

[23] Адам Мец. Мусульманский ренессанс. М.: Наука, 1973, с. 54

[24] Hakkı Aydın. İslam ve modern hukukta işkence. Ankara. İstanbul: Cağaloğlu. 1995. s. 83, 6.

[25] İbn Kayyim el-Cevziyye. Yenə orada, s. 107.

[26] Ahmet Yaman. Göstərilən əsər, s. s.145.

[27] Yenə orada, s.140, 143; İbn Kayyim el-Cevziyye. Göstərilən əsər, c. 4, s. 1431

İslam hüququnda mühüm əhəmiyyət kəsb edən və insanpərvərlik prinsipinə əsaslanan «aman» hərbi-hüquq institutudur. Müasir beynəlxalq hüquqda yalnız XX əsrin sonlarında «aman» məfhumunun analoqu olan anlayışdan istifadə olunmağa başlanılsa da, bu islamdakı «aman» məfhumun mahiyyətini tam şəkildə ehtiva etmir. Belə ki, Beynəlxalq Silahlı münaqişələrdə tələfatların qorunmasına dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarında və bu Konvensiyalara 08 iyun 1977-ci il tarixli Əlavə Protokolunda (protokol I) rus tərcüməsində «Pohada» adlanan 40-cı maddə «heç kimi sağ qoymamaq əmrinin verilməsi qadağası və hərbi əməliyyatların bunun əsasında aparılmasının qadağan edilməsi» mənasını bildirir. Növbəti, 41-ci maddə isə münaqişədə əsir düşənə təminat verilməsindən bəhs edir[28]. İslamdakı aman anlayışı isə daha geniş və hərbi əsirliyə səbəb olmayan hüquqi vəziyyətdir. Müharibə prosesində və ya döyüş zamanı aman verilməsinin hüquqi əsasları Quran və Sünnədə göstərilmişdir. Quranda bu əsaslar aşağıdakı kimi buyurulmuşdur: «Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!»[29] 9/6. Aman verilən şəxslərin təhlükəsizliyi təmin edilməli, onların özləri, arvad-uşaqları öldürülməməli, əsir alınmamalı, mallarına, namuslarına təcavüz edilməməli idi. Bu qanun normasına riayət etməyən şəxs cəzalandırılırdı. Əgər müharibə vaxtı müsəlman əsgərlərindən kimsə hər hansısa qeyri-müsəlmanlara aman vermişdirsə, bunu digər əsgər dəstəsi bilməyərək, həmin şəxslərə təcavüz edib mallarını almış, qadın və uşaqlarını əsir götürmüş, kişilərini isə öldürmüşdürlərsə, belə halda, malları, qadın və uşaqları qaytarılmalı, öldürülmüş kişilərin isə diyələri verilməli idi[30]. İslamda hər bir şəxsiyyətin aləmlərdə böyük dəyəri və qiyməti olması mühüm əhəmiyyət kəsb edən mövqedir. Ona görə də aman hər bir müsəlman tərəfindən verilə bilərdi. Səhih bir hədisdə göstərildiyi kimi, Hz.Peyğəmbər buyurmuşdur ki: «Müsəlmanların amanı birdir, status baxımından ən aşağıda

---

[28] Женевские Конвенции от 12 августа 1949 года и дополнительные Протоколы к ним. Международный комитет Красного Креста. М.: 1994, с. 239
[29] Qurani-Kərim, s.158.
[30] İbn Kayyim el-Cevziyye. Göstərilən əsər, c. 3, s. 382

olan müsəlman da aman verə bilər. Kim bir müsəlmanın amanına təcavüz edərsə, Allahın, mələklərin və bütün müsəlmanların lənəti onun üzərinə olsun…»[31]. Bu normaya əsaslanan hüquqçular hesab edirdilər ki, əgər hansısa bir müsəlman kiməsə aman vermişdirsə, bu aman hüquqi qüvvəli olaraq, tam şəkildə etibarlı hesab edilirdi. Aman verən müsəlman, anlaqlı, həddi-büluğa çatmış şəxs olmalı idi. Onun qadın və ya kölə olması heç bir əhəmiyyət kəsb etmirdi[32]. Eyni zamanda, müharibə zamanı qalmaqalın qarşısını almaq məqsədilə aman verilmə hadisələri müvafiq qaydada dövlət tərəfindən tənzimlənə bilərdi. Aman üç formada elan edilə bilərdi. Birincisi, hər hansı bir sözlə deyilməsi, ikincisi hər hansı bir işarə ilə bildirilməsi və üçüncüsü, «aman-namə» adlanan sənədin göndərilməsi formalarında. Burada amanın hansı dildə elan edilməsi rol oynamırdı. Əsas şərt amanın mahiyyəti düşmənə aydın olmalı və eyni zamanda aman istəmənin real imkanı da nəzərə alınmalı idi. Məsələn, müsəlman əsgərləri düşmən əsgərləri ilə bir-birlərindən uzaq məsafədə olduqlarından, düşmən əsgərinin səsi uzaqdan eşidilmədiyi halda o, səs eşidiləcək məsafəyə yaxınlaşıb aman istəyirdisə, ona aman verilməli idi.[33] Amanlar müddət etibarilə «aman-i müvaqat», yəni müvəqqəti, hansısa bir müddət ərzində etibarlı olan, «aman-i mütləq», yəni tam ixtiyarlı və «aman-i müəbbəd», yəni daimi, vaxt etibarilə müddətsiz olanlar kimi səciyyələndirilirdi. Aman verilənlərə müəyyən və məhdud olub-olmamaları etibarilə də aman «aman-i has» (xüsusi aman) və «aman-i am» (ümumi aman) növlərinə bölünürdü[34]. Bəzən aman verilən zaman onu verən şəxs and içirdi. Belə ki, xarəzmşah Cəlaləddin feodal Qiyasəddinə amanı verərkən «öz sözünü and içməklə təsdiqlədi»[35]. Lakin bu bir qayda deyildi, təsadüfi xarakter daşıyırdı. Sülh və aman verilməsi hər hansı bir şərtlə də bağlana bilərdi. Nəsəvi 1225-ci il Təbriz ətrafında xarəzmşahla döyüş haqqında xəbər verərkən qeyd edir ki, şəhərin hökmdarı «Toğrulun qızı özü, öz qulları və qulluqçuları, həmçinin əmlakı üçün» Xarəzm qoşununun

---

[31] Yenə orada, s. 163.
[32] Ömər Nasuhi Bilmən. «Hukuki İslamiyye ve Istılahatı Fıkhiyye» kamusu. 3 Cilt, İstanbul.: Bilmen yayımevi, 1968, s.379
[33] Yenə orada, s. s. 384.
[34] Yenə orada, s. s. 378-379
[35] Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны., с.190

komandanından aman istəmişdir. O, şəhəri bu şərtlə təhvil verir və xahiş etmişdir ki, Xoy şəhəri onun əmlakı olsun[36]. Bir sıra hallarda sərkərdələr amanı onu istəyənlərin mallarını müsadirə edilməsi şərtilə verirdilər: sultan Cəlaləddin tərəfindən Tiflis şəhərinin işğalı belə amanın nümunəsidir[37]. Eyni hadisə Qaq və Kavazin qalalarının mühasirəsi zamanı baş vermişdi[38]. Aman verən tərəf bəzi hallarda amanla yanaşı, eyni zamanda aman verilən tərəfi təhlükəsizlik və sığınacaqla təmin edirdi[39]. Sultan Cahanşah Qaraqoyunlu qoşunla Herat şəhərinə gəldikdə, şəhərin və vilayətin amanda olacağı və qorunacağı barədə elan edilmişdi[40]. Digər bir epizodda göstərildiyi kimi, aman bəzi hallarda qeyri-müsəlmanlara onların islam dinini qəbul edilməsi şərtilə verilirdi[41]. Lakin bu qeyri-qanuni idi, çünki islamı qəbul etmiş şəxsin amanda ehtiyacı yox idi. Müharibə zamanı hər hansı bir şəhəri döyüşlə ələ keçirən və yaxud şəhər əhalisindən narazı qalan hökmdar onlardan aman malı kimi böyük məbləğdə pul, qiymətli əşyalar və s. tələb edirdi. 1453/54 - ci ildə Cahanşah İsfahan şəhərini azyaşlı oğlu Muhəmməd Mirzəyə vermiş və onun əvəzinə şəhəri idarə etməkdən ötrü lələsini göndərmişdi. Lələ və isfahanlılar arasında narazılıq yarandığına görə hökmdar şəhər əhalisinin üzərinə 3000 tümən aman malı qoymuşdu[42]. İslam hüquqçuları tərəfindən verilən aman anlayışını təhlil edib aşağıdakı kimi təqdim etmək olar: «Aman - Allah haqqı olaraq, təslim olan şəxsə və onun yaxınları üçün həyat və tam təhlükəsizlik təminatının vəd etməsi və bunun dürüst icrası, aman altında olan şəxs(lər) əsir düşürsə, əsir vəziyyətindən qanunla nəzərdə tutulmuş qaydada azad olunması təminatıdır». «Allah haqqı olaraq» ifadəsi verilən amanın Allah haqqı olduğunu, Allahın adı ilə verildiyini, bu səbəbdən buna qəti şəkildə riayət edilməsi zəruriliyini göstərir. Aman hərbi-hüquqi institutu

---

[36] Yenə orada, s.156
[37] Yenə orada, s.168
[38] Yenə orada, s. 226
[39] Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны., с. 152.
[40] Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz, göstəricilər vəşərhlərin müəllifi R.Şükürovadır. Bakı: Elm, 1998, 336 s. s.188
[41] Шихаб ад-Дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурны., s.171
[42] Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. (Həsən bəy Rumlunun «Əhsən ət-təvarix» əsəri əsasında). Bakı: Elm, 1983, s. 84

XIII-XV əsrlərdə bütün Şərqdə və, o cümlədən Azərbaycanda müharibələr zamanı geniş tətbiq olunmuş və öz aktuallığını hal-hazıradək itirməmişdir. Ona görə də, beynəlxalq silahlı münaqişələrin mövcüdluğunu, onların bir çoxunun əsasən müsəlmanlar yaşayan Yaxın Şərqdə baş verməsini nəzərə alaraq, bu institutun beynəlxalq hüquqa daxil edilməsini məqsədəmüvafiq hesab etmək olar. Fikrimizcə, aman institutunun beynəlxalq hüquq sisteminə gətirilməsi və islam hüququndakı prinsiplərə uyğun tətbiqi silahlı münaqişələr zamanı insan həyatının qorunması, münaqişələrin sülh yolu ilə həll edilməsi, sülhün bərqərar olunması istiqamətində böyük rolu olardı.

Əsir düşmüş əsgərlərə mülahim və insani rəftar qaydaları qədim dövrlərdən etibarən tədricən formalaşmağa başlamışdı. Belə ki, artıq Manu qanunlarında (II əsr) silahsız, yatmış, əsir düşmüş, yaralı olan düşmən əsgərlərinin öldürülməsi qadağan edilmişdir. Qələbə çalmış tərəf uduzmuşlara qarşı öz tələblərində mötədil olmalı idi. Bu kimi normaların bəziləri Qədim Yunanıstanın şəhər-dövlətlərində də tətbiq olunurdu[43]. Hüquq tarixində ilk dəfə islam hüququnda əsirlərin hüquqi vəziyyəti qanunla insanpərvər şəkildə ətraflı tənzimlənmiş və XIII-XV əsrlərdə Azərbaycanda bu normalar dövrə uyğun olaraq tətbiq edilmişdir. Əsirlərin öldürülməməsi, onlarla insani rəftar edilməsi, hüquqlarının qorunması və s. bu kimi mühüm müddəalar beynəlxalq hüquqda 1899 və 1907-ci illərdə Haaqa Konvensiyalarında, daha sonra təkmilləşdirilmiş şəkildə yuxarıda göstərilən Konvensiyalarda və Əlavə Protokolda (protokol I) öz əksini tapmışdır[44]. Əsirlərin hüquqi statusu Quran və sünnədə təsbit edilmişdir. Hərbi əsir müsəlmanlar tərəfindən canlı olaraq ələ keçirilən və kişi cinsindən olan düşmən döyüşçüsü hesab edilirdi[45]. Quran ayələrində əsirlərə qarşı mülayim və yaxşı rəftar edilməsi bəyan edilmişdir[46] 8/71. Hədislərdə də əsir düşənlərlə mülayim rəftar edilməsi tələb edilirdi. İbn Qayyim göstərir ki, Hz.Muhəm-

---

[43] Права человека и вооруженные конфликты. Учебник для вузов. Отв. ред. В.А.Карташкин. М.: Норма, 2001, с.22.

[44] Женевские Конвенции от 12 августа 1949 года и дополнительные Протоколы к ним. с. 57-135; Ahmet Özel. İslam devletler hukukunda savaş esirleri. Ankara.: Türkiye diyanet vakfı yayınları, 1996, s. 98

[45] Vehbe Zunaylı. İslam fıkhı ansiklopedisi. Tercumesi: Ahmet Efe ve başqaları. 10 Ciltdə., İstanbul, Risale Vasın Yayın ltd, Cilt 8., 1994, s. 226

[46] Коран. Пер.И.Ю.Крачковского. М.: НПО «Вектор СП», 1991, с. 115

məd əsirlərin əksər hissəsini şərtsiz və qarşılıqsız azad edir, bir qismini fidyə olaraq mal alıb azadlığa buraxır, bir qismini əsir düşmüş müsəlmanlarla dəyişirdi. Ölümlə cəzalandırılanlar isə başqa cinayətlər törətmiş şəxslər idi. Bu qərar ümumi məsləhətləşmə nəticəsində bütün müsəlmanların maraqlarına uyğun olaraq qəbul olunmuşdu[47]. Bu da ki, islamın humanizmini göstərən bir amil olaraq, islam dininin yayılmasına daha bir təkan verirdi. İslam hüququnda əsirlər haqda olan normaların təhlili bu sahədə aşağıdakı əsas müddəaları irəli sürməyə imkan verir. Birincisi, əsir öldürülməməli idi. Quranda əsirlərin öldürülməsi barədə heç bir norma yoxdur, əsir öldürülə bilməzdi və bu barədə Quran ayələrinə və Hz.Peyğəmbərin iştirak etdiyi müharibələrdə əsirlərlə davranış nümunələrinə əsaslanan ümumi fikir birliyi mövcud idi. Məsələn, Məkkənin fəthi zamanı Hz.Peyğəmbər qaçanların təqib edilməməsini, heç bir yaralı və əsirin öldürülməməsini əmr etmişdir. Fəthdən sonra isə onun özünə və ümumiyyətlə müsəlmanlara etdikləri zülm və əziyyətlərə baxmayaraq, o, məkkəlilərin hamısını bağışlamışdı[48]. Bu və digər çoxsaylı nümunələrdə əsirlərin öldürülməməsi, əksinə, onlara qarşı əsl mənada insani rəftarın vacibliyi göstərilir. Düşmən əsgəri əsir götürüldükdə onun taleyini, əsirin barəsində hər hansı bir hökm yalnız dövlət başçısı tərəfindən verilə bilərdi. Əsiri öldürən müvafiq qaydada məsuliyyət daşıyırdı. Əsirin malları da onu əsir kimi tutana yox, dövlətə təhvil verilməli idi[49]. Dörd sünni məzhəbinin hüquqçularına görə, düşmən əsgəri əsir düşdükdən əvvəl islamı qəbul etmiş olarsa, onun həyatı və azadlığına tam təminat verilir, onun öldürülməsi və ya köləşdirilməsi qeyri-qanuni hesab edilirdi[50]. Lakin əgər əsir tabe olmasa, qaçmağa cəhd etsə və onun bu kimi hərəkətləri təhlükə yaratsa idi, onun öldürülməsi məğbul hesab edilirdi. Quranda bu aşağıdakı kimi buyurulmuşdur: «Əgər əsirlər sənə xəyanət etmək istəsələr, (bilsinlər ki,) bundan (Bədr vuruşundan) əvvəl Allaha xəyanət etmişdilər…»[51] 8/71.

---

[47] İbn Kayyim el-Cevziyye. Göstərilən əsər, c. 3, s. 143

[48] İslam Ansiklopedisi. Türkiye Diyanet vakfı. İstanbul.: Ali Riza Vaskan Güzel Sanatlar Matbaası A.S., Yenibosna, Cilt 9, 1994, 560 s.; s.384

[49] Ahmet Özel. İslam hukukunda ülke kavramı: Darulislam, Darulharb. İstanbul.: İklim yayınları, 1991, s.56

[50] Yenə orada, s.382

[51] Qurani-Kərim, s.157

Burada xəyanət dedikdə ilk növbədə əsirin qaçması nəzərdə tutulur. Əsir qaçmaq istəsə və ya tabe olmayaraq, savaşsa, digər təhlükəli hərəkətlər etsə, təhlükənin dərəcəsindən asılı olaraq onun öldürülməsinə icazə verilirdi. Eyni zamanda o, öz ordusuna və ya öz olkəsinə çatmağa nail olduğu halda, artıq azad hesab edilir və onun heç bir məsuliyyəti yaranmır. Bədr döyüşündən sonra əsir düşən Süheyl b. Amr qaçmış, Hz. Peyğəmbər onu kim tutarsa, öldürməsini buyurmuş, lakin həmin şəxs yaxalanıb gətirildikdə, ona heç bir cəza verilməmişdir. Hətta Hz.Ömər onun dişlərini çıxartmağı təklif etmiş, amma bu təklifi Hz.Peyğəmbər qətiyyətlə rədd etmişdir. Əsirlikdən qaçmış əsir ikinci dəfə yenə əsir düşdüyü halda qaçdığına görə cəzalandırılmırdı. Əgər o, qaçmazdan əvvəl hər hansı bir başqa cinayət törədirdisə, bu halda cəzalandırılırdı[52]. Bu müddəalar göstərilən Konvensiyanın 91-94-cü maddələri ilə uyğun gəlir[53].

Nəsirəddin Tusi (XIII əsr) yaşadığı dövrün əsirlərə olan baxışı nümayiş etdirərək, aşağıdakıları bildirir: «Diri əsir tutmaq mümkün olanı öldürməməlidir, çünki əsirdən çox fayda götürmək olar, məsələn: biyar işlətmək, girov qoymaq, mal ilə dəyişmək, bağışlayıb boynuna minnət qoymaq və s., öldürməkdən isə heç bir xeyir olmaz»[54].

İkincisi, əsirlərin qida ehtiyacları, paltar və s. məsələlərinin təmin edilməsinin əsiri götürən dövlət tərəfindən icra edilməsinin əsasını Hz.Peyğəmbər Bədr döyüşündən sonra təyin etmişdir. Əsirləri götürən müsəlman dövləti onlarla yaxşı rəftar etməli, onların yeməyi-içməyini vaxtlı-vaxtında təmin etməli idi. Müsəlman ordularında əsirlərin qida ehtiyacının müsəlmanlar tərəfindən necə ödənilməsi və ümumiyyətlə onlarla necə rəftar edilməsi qaydasını Quranın aşağıdakı ayəsi göstərir: «Onlar öz iştahaları çəkdiyi, özləri yemək istədikləri halda, yeməyi yoxsula, yetimə və əsirə yedirərlər»[55] 76/8. Beləliklə, əsiri götürmüş tərəf hətta özünün ərzaq problemləri olsa da, əsirin qida, digər məişət problemlərini təmin etməyə borclu idi. İslam hüququnda əsirlərin yaşamaq və sosial hüququnun

---

[52] Ahmet Özel. İslam devletler hukukunda savaş esirleri. Ankara.: Türkiye diyanet vakfı yayınları, 1996, s. 69-70.
[53] Женевские Конвенции от 12 августа 1949 года и дополнительные Протоколы к ним. s. 98-99
[54] Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. B.: Elm, 1998, s.218
[55] Qurani-Kərim, s.606; Ahmet Özel. Göstərilən əsər, s. 57

təminatının vacibliyini göstərən müddəalar müasir beynəlxalq hüquqda yalnız 12 avqust 1949-cu il tarixli «Hərbi əsirlərlə rəftar haqqında» Cenevrə Konvensiyasının 3, 15, 20, 26 - 28-ci maddələrində öz əksini tapmışdı[56]. İslam dövlətinin bu vəzifənin icrasında hərbi əsirlərin dini mənsubiyyəti rol oynamırdı. Hətta kafirlərin yeməyi-içməyinin vaxtlı-vaxtında təmin edilməsi böyük savab hesab edilirdi[57].

Üçüncüsü, düşməndən əsir almaq, sonra onları satıb mal qazanmaq məqsədilə müharibə aparmaq da mənfi qarşılanır və bu öz əksini Quranda tapmışdır[58] 8/67. XIII-XV əsrlərdə müsəlman ordularında hərbi əsirlərə olan münasibət Əmir Teymurun tüzüklərində əks edilmişdir. O göstərirdi ki: «…Əmr elədim ki, düşmənin tərəfindən hər kim əsir düşüb, bizim tərəfimizə keçsə, öldürməsinlər, onlara sərbəstlik verilsin. Əgər hərbi xidməti qəbul eləsələr, qoşuna götürsünlər, qəbul eləməyən əsirləri azadlığa buraxsınlar. Buna misal, Qeysər ilə müharibədə bizə təslim olan dörd minlik rum əsgərini azad elədim…»[59].

Dördüncüsü, Quran ayələrində insana işgəncə verilməsi mənfi və çirkin əməl kimi qiymətləndirilməklə, cinayətin araşdırılması prosesində təhqiqat, istintaq orqanı tərəfindən, müharibə zamanı tətbiqi qadağan edilirdi[60] 33/48, 57-59; 3/195, 6/34, 29/10, 9/61, 14/11-12, 4/135. Bu qanun müddəası hədislərdə də öz əksini tapmışdır. Məsələn, işgəncələrin qəti əleyhinə çıxış edən Hz.Muhəmməd bir ordu komandanını səriyyəyə yola salaraq işgəncələrin tətbiq edilməməsi haqqında göstəriş vermişdi[61] [23, s.76]. Başqa bir məsələdə Hz.Muhəmməd düşməni ələ keçirərək, onlar tərəfindən edilən işgəncələrə cavab kimi, eyni yolla cəzalandırılmasını istəməmişdir[62]. Ümumi

---

[56] Женевские Конвенции от 12 августа 1949 года и дополнительные Протоколы к ним. s. 58, 64, 67, 70, 71

[57] İslam Ansiklopedisi. c. 9, s.384

[58] Qurani-Kərim, s.156

[59] Əmir Teymurun vəsiyyətləri. Özbəkcədən çevirəni M. Osmanoğlu. Bakı: Azərnəşr, 1991, 112 s. s.75

[60] Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Л.: ЛГУ, 1966, с.164; Hakkı Aydın. İslam ve modern hukukta işkence. Ankara. İstanbul: Cağaloğlu.1995. s. 72-74

[61] Hakkı Aydın. İslam ve modern hukukta işkence. Ankara. İstanbul: Cağaloğlu.1995. s. 76

[62] Ahmet Yaman. İslam devletler hukukunda savaş. İstanbul., 1998, 192 s. s. 29.

işgəncə qadağası əsirlərə də şamil edilirdi[63]. Bədr döyüşündən əvvəl bir müsəlman iki nəfər qureyşini su götürən zaman yaxalamışdı. Bunlar sorğu-suala çəkilən zaman Hz.Peyğəmbər namaz qılırdı. Səhabələr bu iki şəxsin Əbu-Sufyanın adamları olduqlarını zənn edərək, onların adi su daşıyan olmaları sözlərinə inanmamış və onları döymüşlər. Həqiqətdə su daşıyan olan iki şəxs döyülmənin nəticəsində Əbu-Sufyanın adamları olduqlarını etiraf etməyə məcbur olmuşlar. Hz.Peyğəmbər namazını bitirdikdən sonra: «Doğru söyləyəndə döydünüz, yalan danışanda buraxdınız!»: buyurmuş və bununla da əsirin döyülməsinin, ona işgəncə verilməsinin nə qədər insafsız və insaniyyətdən kənar olmasını göstərmişdir. Hz.Peyğəmbər əsirlərlə yaxşı rəftar etməyi təkidlə tələb etmiş, isti vaxtı onlara sərin yerdə istirahət etmək imkanı verilməsini buyurmuşdu: «Onların üzərində günəş və silahın atəşini birləşdirməyin»[64]. Beləliklə, əsirlərə insani münasibət göstərilməsi, onlarla yaxşı rəftar edilməsi, onların döyülməməsi tələb edilmiş və işgəncələr verilməsi qəti qadağan edilmişdir. Hətta döyüş prosesində təslim olmuş düşmən əsgəri öldürülməməli, tutulduqdan sonra işgəncələrə məruz qalmamalı, ona insani münasibət göstərilməli idi[65]. Bu hüquq norması hazırda qüvvədə olan cinayət qanunvericiliyində də öz əksini tapmışdır (AR CM-nin 116.0.13. maddəsi)[66].

Beşincisi, islam hüququnda hərbi əsirləri sipər kimi istifadə etmək - qoşun arxada, onları isə qabağa buraxmaq kimi hərəkətlər qadağan olunmuş və bu hüquqi norma müasir azərbaycan cinayət qanunvericiliyitndə də öz əksini tapmışdır (AR CM-nin 115.2-ci maddəsi)[67].

Altıncısı, əsir düşmüş müsəlman əsgəri hər bir üsulla əsirlikdən qurtarılmalı idi. Belə ki, əsgərin son nəfəsinə qədər vuruşması və təslim olmaması daha üstün mövqe kimi qəbul olunmuşdur. Lakin onun çarəsiz qalıb təslim olması cinayət hesab edilmirdi. Düşmən əsirliyində olan müsəlmanın fidyə verib və yaxud başqa əsirlə dəyişdirilib qurtarması vacib idi. Bu Hz.Peyğəmbərin buyruğudur: «Əsiri qurtarın, acı doyuzdurun və

---

[63] İbn Kayyim el-Cevziyye. Göstərilən əsər, c. 3, s. 139

[64] Ahmet Özel. İslam devletler hukukunda savaş esirleri. Ankara.: Türkiye diyanet vakfı yayınları, 1996, s.60

[65] İbn Kayyim el-Cevziyye. Yenə orada

[66] Azərbaycan Respublikası Cinayət məcəlləsi. s. 102

[67] Yenə orada, s. 101

xəstəni ziyarət edin»[68]. Bu tələbə XIII-XV əsr Azərbaycan dövlətlərində ciddi riayət edilirdi. Məsələn, 14 avqust 1472-ci il tarixdə baş verən Bəyşehr döyüşündə 200 ağqoyunlu döyüşçüsü osmanlılar tərəfindən əsir götürülüb, geriyə qaytarılmırdılar. Ağqoyunlu hökmdarı sultan Həsən hər bir döyüşçüyə görə onun çəkisi qədər qızıl ödəmiş və beləliklə də, döyüşçülərini azad edə bilmişdir[69]. Bu və digər nümunələr azərbaycan ordularında əsirlərin azad edilməsi məsələsində islam hüquq normalarının böyük ciddiliklə riayət edilməsini göstərir[70].

XIV əsr azərbaycan şafii hüquqçusu Yusif Ərdəbiliyə görə, əsir düşmüş müsəlman bütün imkanlardan istifadə edib, əsirlikdən qaçmasına cəhd göstərməlidir[71]. Düşmən əsirliyində olan müsəlman əsgəri sərbəst buraxıldığı və ona aman verildiyi hallarda, onun tərəfindən düşmənin canına və malına zərər yetirilməsi haram hesab edilir və bu barədə islam hüquqçuları ümumi razılığa gəlmişlər[72]. Yusif Ərdəbili geyd edir ki, əgər kafirlər əsir düşmüş müsəlmanı şərtsiz buraxıblarsa, həmin müsəlman qayıdıb onlarla müharibə etməməlidir. Əgər əsir müsəlman əsirlikdən buraxılıb vətənə qayıdarkən başqa kafirlərin hücumuna məruz qalırsa, bu təqdirdə onlarla vuruşmalıdır. Əgər əsir yaşadığı ərazidən köçmək şərti ilə buraxılıbdırsa o, bu şərti qəbul etməli idi, çünki məcburiyyət qarşısında qalmışdır. Ancaq buraxıldıqdan sonra bu şərtə sadiq qalmaq vacib deyildi, çünki şərt məcburi şəkildə qoyulmuşdur. Yaşadığı ərazidən köçməyə dair and içirdisə, azadlığa buraxıldıqdan sonra bu and həqiqi sayılmırdı, çünki məcburiyyət qarşısında verilmişdir. Lakin köçməyə arvadını boşamasına and içirdisə, bu and qüvvədə qalan hesab edilirdi və ona görə də, köçməsə, yəni andını yerinə yetirməsə, bu halda həmin arvad ona haram hesab edilirdi. Daha bir xüsusiyyət nəzərə alınırdı: kafirlər tərəfindən qayıtmaq və ya pul göndərilməsi şərti ilə buraxılmış əsirin qayıtması haram buyurulmaqla, pulun

[68] Sahih-i Buhari muhtasarı tecrid-i sarıh tercemesi ve Şerhi. 6 cilt. Ankara.: Diyanet işleri başkanlığı yayınları, Türk Tarih Kurumu Basımevi, 1993, s. 404

[69] Ал – Халаби Мухаммед. Поход эмира Йашбека. Пер. с арабского языка З.М. Буниятова, Т.Б. Гасанова. Баку: Элм, 1985, 97 с. с.45.

[70] Əhmədov S.Ə. XIII-XV əsrlərdə Azərbaycanda hərb sənəti tarixi. T.e.n. dissertasiyasının əlyazması. Bakı: 2001

[71] Ərdəbili Cəmal əd-Din Yusif. Əl-Ənvər li əməl ul-Əbrar. Azərbaycan EA Əlyazmalar institutu. D-417/10394-20661. s.258

[72] İslam Ansiklopedisi. c. 9, s.388

da verilməsi düzgün hesab edilmirdi. Amma kafirdən borc pul alıb əsirlikdən azad edilən bu borcu qaytarmalı idi[73].

Əgər əsirlikdə olan müsəlmanın sağ olması məlum idisə, onun mirasçısı müəyyən edilir və payı saxlanılırdı. Əgər sağ olması məlum deyildisə, onun əmlakı haqda miras hökmü tətbiq edilmir və xanımları başqalarına ərə gedə bilməzlər[74]. Şafiilərə görə itkin düşmüş, müharibədən qayıtmamış və yaxud hər hansı bir təhlükəli hadisədən sonra ölməsi güman edilən şəxsin ölməsi qazı fitvası ilə təsdiq edilməlidir[75]. Əmir Teymur bir sıra hallarda əsir düşmüş müsəlmanları nəinki azadlığa buraxır, hətta onlara «qızıl, paltar və xələt» verir, sonra onlara bir rəhbər təyin edərək, məmləkətlərinə göndərirdi[76].

Kölələrin hüquqi vəziyyəti birbaşa müharibə ilə bağlı olmuşdur, çünki islam hüququna görə köləliyin yeganə mənbəyi müharibə idi. XIII-XV əsrlərdə Azərbaycanda mövcüd olan qaydaya əsasən əsirlər hərb qənimətinə aid edildiyinə görə ordu komandanı əsirlərin qənimət kimi paylaşdırılmasına əmr versəydi, əsirlər kölə olunurdu. Lakin qeyd edilməlidir ki, əsirlərin kölələşdirilməsi heç də vacib şərt deyildi. Çünki islam hüquqçularına görə əsirin kölələşdirilməsi qaydası orta əsrlərdə mövcüd olmuş müharibə adətlərinə əsaslanır və islamla əlaqəsi müvəqqəti xarakter daşımışdır. Quranda isə əsirlərin kölə vəziyyətinə gətirilməsi və yaxud bu köləlik institutunu tənzimləyən heç bir müddəa ümumiyyətlə yoxdur. Hz.Peyğəmbər daima müharibəsiz köləliyə qarşı qəti olaraq çıxış etmiş və azad insanları kölə vəziyyətinə gətirilməsini şiddətlə yasaqlamışdı Eyni zamanda islam hüququnda köləlik institutu dövrə uyğun olaraq tam rədd edilməmiş, qanuniləşdirilərək tədricən hüquqi cəhətdən humanistliyə doğru hərtərəfli tənzimlənmiş və ümumiyyətlə zaman-zaman tamamilə ləğv edilməsinə yönəldilmişdir. Ona görə də müharibə zamanı əsarətə alınma prosesi tədricən zəiflədilmiş, əsirlikdən azadedilmə proseduru isə get-gedə yüngülləşdirilmişdir. Köləlik olan dövrdə də kölələrə müvafiq olaraq mühüm

---

[73] Ərdəbili Cəmal əd-Din Yusif, Göstərilən əsər, s.258

[74] Tehrani Əbubəkr. Kitabi-Diyarbəkriyyə, s.95-96

[75] Cəlilov E. Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüz illər). Bakı: Dövlət kitab palatası. 1995, s. 295

[76] Şami Nizaməddin. Zəfər-namə. Azərbaycanın və qonşu ölkələrin tarixinə dair iqtibaslar. Türk dilindən tərcümə Z.M.Bünyadovundur. Bakı: Elm, 1992, s. 11

və əhəmiyyətli hüquqlar verilmiş və ümumiyyətlə bu institut islah edilmişdir[77]. Kölələrin azad edilməsinə dair bir çox qanunlar məcburi xarakter daşımışdır. Məsələn, Quranda zəkat gəlirlərindən sərf ediləcək yerlər sadalanarkən «köləlikdən azad etmə» də xüsusilə göstərilmişdir (9/60). Ehtiyatsızlıqdan adam öldürənin (4/92), verdiyi andı pozanın (5/89), arvadına «sən mənim anam kimisən» tərzində sözləri deyənin (58/3) cəzası kəffarə idi ki, iki ay oruc tutmaqla yanaşı bir köləni azadlığa buraxılması olmuşdur. Hz.Peyğəmbər də Ramazan ayında qəsdən orucu pozan bir müsəlmandan bir köləni azadlığa buraxılmasının imkanı olub-olmamasını soruşmuş və köləni azadlığa buraxanın bunun qarşılığında cəhənnəmdə oddan qorunacağını bildirmişdir[78]. Əsirin azad edilməsi məsələlərində qanun çərçivəsində hər hansı bir tərəddüdlü məqamlar yaranırdısa, bu zaman əsirlərin azad edilməsi meylinə daha çox üstünlük verilirdi[79]. Müasir dillə bunu «kölə azadlığı prezumpsiyası» kimi xarakterizə etmək olar. Kölə sahibləri onlarla yaxşı davranmalı, özünün yeyib-içdiklərini, geyindiklərini onlara da yedirib, içdirib, geyindirməli idilər, onlara ağır iş verməməli, versələr də kömək etməli, onlara «qul», «kölə» kimi sözlər deyilməməli, onlar nəinki döyülməməli, hətta onlara sillə də belə vurulmamalı idi. Qadın kölələr (cariyələr) sahiblərinin eyni zamanda arvadları kimi idilər, yəni onlarla cinsi əlaqədə olub, uşaq sahibi olurdular[80]. Bu uşaq atası tərəfindən tanılanda bütün hüquqlara malik bir şəxs hesab edilirdi. Sahibindən olan və onun tərəfindən tanılan bir uşaq anası bundan sonra satılmazdı və sahibi öləndən sonra azad sayılırdı[81]. Cariyə ilə ayrıca nikah müqaviləsinin bağlanmasına ehtiyac yox idi.

Kölələr müşriklərdən qaçıb müsəlmanlara qatılanda azad hesab olunurdu. Hz.Peyğəmbər kölə və onun sahibi haqqında iki hökm vermişdi: a/ kölə darül-hərbdən sahibindən əvvəl qaçıbsa, o, azaddır, sahibi ondan sonra

[77] Hayreddin Karaman. Anahatlarıyla İslam hukuku. s.288-289
[78] Müslim, es-Sahih, Beyrut, Daru ihyai-t-turasi-l-arabi, cilt 2, s. 782. s.782, 1147; Hayreddin Karaman. Anahatlarıyla İslam hukuku. s.288
[79]Sabri Şakir Ansay. Hukuk tarihinde İslam hukuku. Ankara: Acans-Türk Matbaası, 1958, s. 70
[80] Hayreddin Karaman. Anahatlarıyla İslam hukuku. s.289
[81] Sabri Şakir Ansay. Göstərilən əsər, s. 70.

çıxıb gəlmişsə, kölə ona qaytarılmır; b/ sahibi köləsindən əvvəl çıxarsa, sonra da köləsi gələrsə, bu halda kölə ona qaytarılır[82].

XIII-XV əsrlərdə Azərbaycanda mövcüd olan dövlətlərdə müharibələr zamanı qadın və uşaqlar əsir alınarkən onların hüquqi vəziyyəti əsgər əsirlərdən fərqlənirdi. Belə ki, əsir qadın və uşaqlar öldürülməməli, onların hətta həbs edilməsi qadağan idi[83]. Bu məsələdə islam hüquqçularının mövqeləri eyni idi. Qadın və uşaqların Kitab əhli və ya bütpərəst olmaları əhəmiyyət kəsb etmirdi. Hz.Peyğəmbər əsir götürülən ananı və onun həddi-büluğa çatmamış uşağını ayırmağa icazə verməmiş, bunun ağır günah olduğunu buyurmuşdur: «Kim bir ananı uşağı ilə ayırırsa, Allah da qiyamət günü onunla sevdiyini ayırsın»[84]. Hənəfi və hənbəlilərə görə, ikisi də və ya biri həddi-büluğa çatmamış iki qardaşı və bacı-qardaşı da bir-birindən ayırmaq haram hesab edilir. Ümumiyyətlə göstərmək olar ki, əsir alınmış ailələr haqqında onların qənimət payı olaraq ayırılması yasaqlanmış, ailənin bölünməməsi prinsipi mövcüd olmuşdur[85]. Qadın öz köləsini azad etməmiş, ona ərə gedə bilməzdi[86]. Ərli qadını almaq haram buyurulmuş, əsir sübay qadınları qənimət kimi paylaşdırılmazdan əvvəl onlarla cinsi əlaqədə olmaq qadağan olunmuşdur 4/24. Bu və digər hüquqi normalar əsir düşmüş qadınla münasibətləri tənzimləyirdi. Ümumiyyətlə də islam hüququnda «yetim qızlar, aciz uşaqlar və yetimlərlə ədalətlə rəftar» edilməsi buyurulmuşdur 4/127. Quranın başqa ayələrində yeni doğulmuş uşaqların öldürülməsi, yetimlərin malını mənimsənilməsi, uşaqların hüquqlarına digər təcavüz formaları qəzəblə lənətlənmişdir[87] 6/137, 152 və s.

Müsəlman iqtidarına qarşı üsyan qaldıranlar, silahlı qiyam edənlər əsir götürülsə də, onların qadın və uşaqları əsir götürülə bilməzdilər[88]. Hənəfilərə görə, siyasi əsirlər döyüşdən sonra sərbəst buraxıldıqları zaman birləşib dövlət üçün hər hansı bir təhlükə yaratsalar, onlar yenidən yaxalanaraq, ölüm cəzasına məhkum edilə bilərdilər. Şafiilərə və hənbəlilərə görə, siyasi əsirlər

---

[82] İbn Kayyim el-Cevziyye., c. 4, s. 1427.
[83] İslam Ansiklopedisi. c. 9, s. 387
[84] Ahmet Özel. İslam devletler hukukunda savaş esirleri. S. 57
[85] Ahmet Özel. İslam devletler hukukunda savaş esirleri. s. 58-59
[86] Sabri Şakir Ansay. Göstərilən əsər, s. 68
[87] Qurani-Kərim, s. 69, s.82,120, 123
[88] El-Marqinani Ebu l-Hasen Ali, el-Hidaye. cilt 3, İstanbul, 1987, s. 170-171

öldürülə bilməz, öldürüldüyü təqdirdə diyələri verilməlidir. Bu məzhəblərin siyasi əsirlərlə bağlı hüquqi görünüşləri Hz.Peyğəmbərin qaçan əsirlərin təqib edilməyəcəyini, yaralı olanlara toxunulmayacağını və əsirlərin öldürülməyəcəyini, onların əmlakının qənimət kimi alınmayacağı kimi hökmlərinə əsaslanırdı[89]. Siyasi əsirlər itaət etmələri təqdirdə sərbəst buraxılır, əgər itaət etmirlərsə, döyüş sona çatana qədər həbs edilirdilər. Sonra isə döyüşməmək şərtilə azadlığa buraxılırdılar. Hənbəlilərin bir mövqeyinə görə, qadın və uşaqlar bu məsələdə toxunulmaz olmalı idilər. Digərlərinə görə isə, təqsirkar şəxslərə psixoloji təzyiq göstərmək üçün onların qadın və uşaqları həbs edilib, döyüşdən sonra buraxıla bilərdilər[90].

Beləliklə, XIII-XV əsrlərdə Azərbaycanda mövcüd olmuş dövlətlərdə islam hüququnun tərkibində olan hərbi-hüququ normalar müharibə zamanı insan hüquqlarının qorunması məsələlərini hərtərəfli və çox dolğun şəkildə tənzimləmişdir. İslam hüququnun insan hüquqlarının qorunmasına dair hərbi-hüquqi normaları hal-hazıradək öz aktuallığını itirməmişdir ki, bunun bariz nümunəsi «aman» hərbi-hüquq institutudur. Fikrimizcə, bu və insan hüquqlarının qorunmasına dair digər islam hüququnun institutları hazırda xüsusilə də Yaxın Şərqdə baş verən silahlı münaqişələr zamanı müvəffəqiyyətlə tətbiq oluna bilərdi.

---

[89] İslam Ansiklopedisi. c. 9, s. 387

[90] Ahmet Özel. İslam devletler hukukunda savaş esirleri. s. 90-91